## «Azərbaycanın vergi islahatlarını Tacikistanda tətbiq etmək niyyətindəyik»

Tacikistan Respublikası Hükuməti yanında Vergilər Komitəsi sədrinin birinci müavini
Ayub Sloliyev

...bildirmişdir ki, xarici investisiyalar üçün «açıq qapı» siyasəti yürüdən Tacikistan dövləti vergi sistemini davamlı şəkildə müasirləşdirmək, yeniliklərdən vaxtında xəbər tutmaq üçün MDB dövlətlərinin təcrübəsi ilə yaxından tanış olur: «Belə görüşlər, ilk növbədə, informasiya texnologiyalarının tətbiqi sahəsində təcrübə mübadiləsini genişləndirmək üçün yaxşı fürsətdir. Son illərdə Azərbaycan sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, vergi ödəcəyicilərinə elektron xidmətlərin göstərilməsi, vergi və rüsumların elektron formada yığılması sahəsində böyük uğurlara imza atmışdır».

Ayub Stoliyevin sözlərinə görə, Tacikistan hökuməti MDB ölkələri arasında daha çox Azərbaycanın vergi təcrübəsinin öyrənilməsinə üstünlük verir: «Tacikistan Sahibkarlar Assosiasiyasının nümayəndə heyəti Azərbaycanda sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sahəsində aparılan islahatlarla tanışlıq, bu sahədə təcrübəni öyrənmək məqsədi ilə son illərdə bir neçə dəfə Bakıya səfər etmişdir. Nümayəndə heyətinin üzvləri kommersiya hüquqi şəxslərin «bir pəncərə» prinsipi üzrə dövlət qeydiyyatı prosesi ilə tanış olmaq üçün Bakı Şəhər Vergilər Departamentinin kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində olmuşlar. Nümayəndə heyəti idarənin fəaliyyətini, kommersiya hüquqi şəxslərin «bir pəncərə» prinsipi ilə dövlət qeydiyyatına alınması üçün yaradılan şəraiti, eləcə də kommersiya hüquqi şəxslərin qeydiyyat prosesini müşahidə etmiş, Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ilə tanış olmuşdur. Biz bu yenilikləri Tacikistanda da geniş şəkildə tətbiq etmək niyyətindəyik».

Materialları hazırladılar: Elbrus CƏFƏRLİ, Samir MUSTAFAYEV